

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzabəziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

13 avqust 2020-ci il
Cümə axşamı

№ 28 (3493)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## “QARABAĞ” YATAĞI İQTİSADİ PERSPEKTİVLƏRİMİZİ ARTIRACAQ




**Prezident İlham Əliyev:** “1994-cü ildən başlayaraq xarici neft şirkətlərinin Azərbaycanda böyük həcmdə sərmayə qoymalarına baxmayaraq, bu günə qədər Azərbaycanın neft-qaz sənayesinə, neft-qaz potensialına xarici investorlar tərəfindən maraq azalmır, əksinə, artır. Əminəm ki, növbəti illərdə “Qarabağ” və digər yataqlar uğurla istismar ediləcək və ölkəmizə böyük fayda verəcək”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda “Qarabağ” yatağının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və “BOS Şelf” şirkətinin baş direktoru İxtiyar Axundov Prezident İlham Əliyevə görülən işlər barədə məlumat veriblər.

Bildirilib ki, “Qarabağ” dayaq bloku SOCAR-ın “BOS Şelf” şirkəti tərəfindən Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda tikilib. Qurğu neft-qaz kəşfiyyatı və hasilatı üçün nəzərdə tutulur. Dayaq bloku “Qarabağ” yatağında quraşdırılacaq stasionar dəniz özülünün üst hissəsini və göyərtə meydançasını saxlamaq məqsədilə şəbəkə tipli metal konstruksiya şəklində hazırlanıb. Bu blok dənizdə suyun dərinliyi 182 metr olan sahədə quraşdırılacaq. Dayaq blokunun quraşdırılması “Qarabağ” yatağının dərin qatlarında neft və qaz hasilatının həyata keçirilməsində böyük rol oynayacaq.

Dövlətimizin başçısı dayaq blokunun dənizə yola salınmasını bildirən düyməni basıb.

Qeyd edək ki, “Qarabağ” layihəsi üzrə hazırlanan dayaq bloku SOCAR-ın tarixində həm ölçülərinə, həm də çəkisinə görə hazırlanan ən böyük sualtı konstruksiyadır. “STB-1” daşıma barjına yüklənəcək konstruksiyanın ümumi çəkisi 16 min tondur. Blokun tikintisi iki il ərzində aparılıb. Konstruksiyanın hazırlanması prosesində mühüm amillərdən biri də yerli mütəxəssislərin iştirakıdır. Belə ki, dayaq blokunun tikintisində çalışanların 95 faizi yerli mütəxəssislər olub.

“Qarabağ” yatağı Xəzər dənizinin cənub hövzəsində, Abşeron arxipelaqının şimal hissəsində yerləşir. Yataqda 1997-1998-ci illərdə Xəzər Beynəlxalq Neft Şirkəti konsorsiumu tərəfindən qazma işləri aparılıb. 2020-ci ildə SOCAR-ın və “Equinor” şirkətinin birgə qazma əməliyyatı vasitəsilə bu yataq məhz neft yatağı kimi kəşf edilib. “Qarabağ” yatağı 60 milyon ton neft ehtiyatına malikdir.



Yataqda 6 neft, 3 qaz və 3 suvurucu quyunun qazılması nəzərdə tutulur. “Qarabağ” yatağı Azərbaycanın ən zəngin karbohidrogen yataqlarından biridir.

Bu yatağın istismara verilməsi Azərbaycanın neft strategiyasının daha uğurla reallaşdırılmasına və ölkəmizin neft gəlirlərinin artmasına böyük töhfə olacaq.

Dayaq bloku ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.

---

***Avqustun 6-da dövlətimizin başçısı ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda müşavirə keçirib.***

***Azərbaycan Prezidenti İlham Əliyev avqustun 8-də milli bayram münasibətilə Sinqapur Respublikasının Prezidenti zati-aliləri xanım Həlimə Yaquba təbrik məktubu ünvanlayıb.***

***Dövlətimizin başçısı avqustun 8-də Azərbaycan Respublikasında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri avqustun 8-də Azərbaycan Respublikasında elmin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Şahbaz Musa oğlu Muradovun “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Avqustun 10- da Azərbaycan Prezidenti İlham Əliyev Belarus Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə zati-aliləri cənab Aleksandr Lukaşenkoya təbrik məktubu ünvanlayıb.***

***Dövlətimizin başçısı avqustun 11-də Əhmədiyyə Cəbrayılovun 100 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.***

---

## Prezidentin Mətbuat Xidmətindən

Avqustun 7-də Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Aleksandr Vuçiç iyul ayında Ermənistan-Azərbaycan sərhədində Ermənistanın təxribatı nəticəsində baş vermiş hadisələr zamanı hərbi qulluqçularımızın həlak olması ilə əlaqədar başsağlığı verib. Eyni zamanda, Serbiya Prezidenti bu hərbi toqquşmalarda Ermənistan tərəfinin Serbiyada istehsal olunan silahlardan istifadə etməsindən təəssüf hissi keçirdiyini bildirib. O, bu vəziyyətin araşdırılması ilə bağlı yaxın vaxtlarda Azərbaycana Serbiyanın yüksəksəviyyəli nümayəndə heyətinin göndəriləcəyini qeyd edib. Aleksandr Vuçiç Azərbaycanla strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətlərini yüksək qiymətləndirdiyini vurğulayaraq bunun təsdiqi kimi, Azərbaycan Prezidentini Serbiyaya rəsmi səfərə dəvət edib.

Dövlətimizin başçısı Serbiya Prezidentinin yuxarıda göstərilən faktın araşdırılması və əməkdaşlığın perspektivlərinin müzakirə edilməsi üçün yüksəksəviyyəli nümayəndə heyətinin göndərilməsi barədə qərarı ilə bağlı məmnunluğunu ifadə edib.

Prezident İlham Əliyev Serbiyaya səfər ilə əlaqədar dəvətə görə minnətdarlığını bildirib.

*****

Avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya telefonla zəng edib.

Dövlətimizin başçısı A.Lukaşenkonu prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik edib, ona Belarus xalqının firavanlığı və ölkənin inkişafı naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Belarus Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə ediblər.

Telefon söhbəti zamanı əməkdaşlığın müxtəlif sahələrinin perspektivləri ilə bağlı məsələlər müzakirə edilib.

---

## Xalqın xidmətçisi olmaq xoşbəxtliyi

***Nəticələr onu deməyə əsas verir ki, Azərbaycan yaxın gələcəkdə təkcə regionda deyil, dünyada diqqət çəkəcək layihələri reallaşdıracaq. Bütün bunları həyata keçirmək üçün əlbəttə ki, əsas meyar sabitlik və təhlükəsizlikdir.***

Pandemiya ilə mübarizədə mühüm qərarlar qəbul edən, üzərinə düşən vəzifələri layiqincə reallaşdıran və hətta heç bir sosial layihəni təxirə salmayan Prezident İlham Əliyevin qətiyyətli addımları Ümumdünya Səhiyyə Təşkilatı, BMT kimi nüfuzlu qurumlar tərəfindən digər ölkələrə nümunə olaraq göstərilir.

Bəzi ölkələr pandemiya ilə mübarizədə aciz durumda qalaraq beynəlxalq qurumlardan, böyük dövlətlərdən yardım istəmək məcburiyyətində qaldığı halda, Azərbaycan bu istiqamətdə layihələrini öz hesabına, heç bir təşkilatdan borc almadan həyata keçirir. Bu da, əlbəttə ki, ilk növbədə, Azərbaycanın iqtisadi qüdrətinin və cənab İlham Əliyevin siyasi müdrikliyinin, qətiyyətli, cəsarətli qərarlarının göstəricisidir.

Prezidentin 5 rayona səfəri zamanı 11 obyektin açılışında iştirak etməsi, sosialyönümlü layihələrin icrası üçün 14 sərəncam imzalaması və 71,2 milyon manat dövlət yardımının ayrılması dövlətin güclü, millətin sağlam və işıqlı gələcəyi üçün hesablanıb.

9 modul tipli xəstəxananın tikilməsi, 31 laboratoriyanın qurulması, 38 müasir təcili tibbi yardım avtomobilinin ölkəmizə gətirilməsi, 20-ci "ASAN xidmət"in fəaliyyətə başlaması dünyanın inkişaf etmiş dövlətləri sırasına çıxmağa can atan bir dövlətin liderinin xalqının xidmətçisi kimi hər kəsə nümunə olacaq fəaliyyətinin nəticəsidir.

Pandemiya ilə mübarizə istiqamətində gördüyü qabaqlayıcı tədbirlər, dünya dövlətlərinə qlobal böhrana qarşı beynəlxalq həmrəylik çağırışı, 30 dövlətə göstərilən yardımlar, həmçinin ölkə daxilində reallaşdırdığı sosial layihələrin uğurlu nəticələri göstərir ki, Azərbaycanın istənilən böhranla mübarizə aparmağa qüdrəti, gücü çatır.

# NAZİR VİLAYƏT EYVAZOV SERBİYALI HƏMKARI İLƏ GÖRÜŞÜB

**Avqustun 11-də Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikasının Baş nazirinin müavini, Milli Təhlükəsizlik Şurasının katibi, Daxili İşlər naziri Neboyşa Stefanoviçlə görüşü keçirilib.**



Qonağı salamlayan nazir Azərbaycanla Serbiyanın strateji tərəfdaş olduğunu məmnunluqla vurğulayaraq ölkələrimiz arasındakı münasibətlərin belə səviyyəyə çatmasında iki ölkə rəhbərliyinin qarşılıqlı səfərlərinin , aparılan danışıqların və imzalanan sənədlərin mühüm rolunu qeyd edib. Nazir V.Eyvazov 2010-cu il mayın 13-də Bakıda imzalanmış "Azərbaycan Respublikasının Hökuməti ilə Serbiya Respublikasının Hökuməti arasında cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"in, eləcə də ölkələrimizin polis hazırlayan təhsil müəssisələri arasında olan “Anlaşma memorandumu”nun iki ölkənin Daxili İşlər nazirlikləri arasında əlaqələrin qurulmasında mühüm əhəmiyyətini diqqətə çatdırıb.

Nazir daxili işlər orqanlarında həyata keçirilən islahatlar barədə qonağa qısa məlumat verib, demokratik prinsiplərə söykənən, polisin fəaliyyətini tənzimləyən yeni qanunların qəbul olunduğunu, həmin qanunların icrasının xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Bu istiqamətdə mühüm dəyişikliklərdən birinin fəaliyyətin qabaqcıl dünya təcrübəsinə uyğun təkmilləşdirilməsi olduğunu deyən Daxili İşlər naziri son 10 ildə 8 minə yaxın əməkdaşın və hərbi qulluqçunun bir sıra beynəlxalq təşkilatların xəttilə çoxsaylı təlim və treninqlərə cəlb edildiyini, bunun şəxsi heyətin peşəkarlığının, hazırlıq səviyyəsinin daha da yüksəldilməsinə müsbət təsir göstərdiyini qeyd edib. Vətəndaşların məruz qaldığı hüquqazidd əməllərə qarşı təxirəsalınmaz operativ tədbirlərin görülməsi baxımından ən müasir informasiya texnologiyalarının imkanlarından da geniş istifadə olunduğu bildirilib.

Mövcud problemlərə toxunan Daxili İşlər naziri transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri, qanunsuz miqrasiya və kibercinayətkarlıq ilə mübarizənin diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən Neboyşa Stefanoviç ölkələrimiz arasındakı əlaqələrin son illər bütün sahələrdə genişlənərək daha da dərinləşdiyini, oxşar münaqişələrdən əziyyət çəkən hər iki dövlətin bir sıra problemlərə dair beynəlxalq müstəvidə eyni mövqedən çıxış etdiyini, yaxın dost saydıqları Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

# Nəticələr təhlil edilib

**2020-ci ilin 6 ayı ərzində ölkə üzrə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən təhlil edilərək ümumiləşdirilmişdir.**

Müəyyən edilmişdir ki, cari ilin 6 ayı ərzində narkotiklərlə mübarizə sahəsində hüquq mühafizə orqanları tərəfindən 2893 fakt aşkar olunmuşdur. Onlardan 1015-i narkotik vasitələrin qanunsuz satışı, 1665-i qanunsuz əldə edilib saxlanılması, 170-i qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 43-ü isə digər cinayətlərlə bağlı olmuşdur.

Aşkar edilmiş faktlar üzrə ümumilikdə 2 ton 309 kiloqram 543,2 qram narkotik vasitə və 135 kiloqram 091,2 qram psixotrop maddə müsadirə olunmuşdur. Onlardan 1 ton 460 kiloqram 615,3 qramını heroin (63,2%), 524,2 kiloqramını marixuana (22,6%), 168 kiloqram 675,3 qramını tiryək (7,3%), 20 kiloqram 469,8 qramını həşiş (0,8%), 394 qramını kokain (0,01%) təşkil etmişdir.

Hesabat dövründə aidiyyatı qurumların nümayəndələrinin iştirakı ilə 926,5 hektar sahədən çəkisi 90 ton 163 kiloqram 710,6 qram olan 271 min 712 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilmişdir.

Hüquq mühafizə orqanları tərəfindən narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 143 fakt aşkar edilmiş, faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 1 ton 289,1 kiloqram müxtəlif növ narkotik vasitə və psixotrop maddə çıxarılmışdır.

1933 nəfər cinayət məsuliyyətinə cəlb edilmişdir. Ümumilikdə aşkar edilmiş cinayətlərin 194-ü qrup halında törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 769,6 kiloqram narkotik vasitələr müsadirə edilmişdir.

Təhlil göstərir ki, ötən ilin 1-ci yarım ili ilə müqayisədə cari ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkar edilən faktların sayı 340, qanunsuz satışı ilə bağlı faktların sayı 308, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 13, qrup şəklində törədilmiş cinayətlərin sayı 47 fakt, ümumilikdə aşkar edilmiş faktlar üzrə qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 658 kiloqram 793,9 qram, yabanı halda müyyən edilmiş narkotik xassəli bitkilərin yaş kütləsi 16 ton 271 kiloqram 409 qram, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 250 nəfər artmışdır.

*Natiq Cavadov,*
*polis mayoru*

# AND İÇDİLƏR

## *Vətənə, dövlətə sadiq olacaqlarına*

**Avqustun 7-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib. Mərasim ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.**





Əsgərlər hərbi and içərək Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik-leytenant Telman Həsənov əsgərlərə hərbi andın mənasını, xalqa, Vətənə sədaqət andı içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Hərbi andiçmə münasibətilə əsgərləri təbrik edən Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov hərbi andı qəbul etdikləri günün onların həyatında unudulmaz, şərəfli və təntənəli bir gün olduğunu vurğulayıb. O, ümummilli lider Heydər Əliyevin yaratdığı və qurucusu olduğu Azərbaycan Silahlı Qüvvələrinin ayrılmaz hissəsi olan Daxili Qoşunlarının məhz ulu öndərin xüsusi diqqət və qayğısı nəticəsində yüksək döyüş hazırlığına, sosial və maddi-texniki bazaya malik olduğunu xüsusi qeyd edib. Diqqətə çatdırılıb ki, bu gün də möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ulu öndərimizin ənənələrini, onun Silahlı Qüvvələrə olan diqqət və qayğısını uğurla davam etdirir. Eyni zamanda bu gün Daxili Qoşunların peşə və döyüş hazırlığının möhkəmləndirilməsi məqsədilə Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazovun əmr və göstərişlərinə uyğun davamlı tədbirlər həyata keçirilir.

General-leytenant Ş.Məmmədov Vətənin taleyinin yalnız millətini, torpağını sevən, onun uğrunda canını hər an fəda etməyə hazır olanlara etibar edildiyini bildirdi: “Qəlbinizdə, düşüncənizdə ancaq Vətənə namusla, ləyaqətlə xidmət etmək hissi olsun. Sizə həvalə olunmuş bütün vəzifələri uğurla yerinə yetirməyi, sıralarına daxil olduğunuz Daxili Qoşunların adını və nüfuzunu qorumağı, ucaltmağı arzu edirəm”.

Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı əsgərlərin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun dövlət və dövlətçilik naminə əmrlərini yerinə yetirməyə hər an hazır olacaqlarına, göstərilən ali diqqət və qayğıya fədakar xidmətlərilə cavab verəcəklərinə əminliyini bildirib.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

*mayor Anar Əhmədov*

# Davranış qaydaları xidmətin təməlidir

## Polis-vətəndaş münasibətləri möhkəm təməl üzərində qurulub. Məhz buna görə də vətəndaşlar “Uman yerdən küs”mürlər.

1. Müəyyən hüquqazidd əməllərlə, sosial problemlərlə üzləşmiş şəxsin ilk növbədə müraciət etdiyi ünvan-polis orqanı olur.

Polisdə qarşılanmasından asılı olaraq, həmin şəxsdə qanunların aliliyinə, ədalətin təntənəsinə inam formalaşır. Polis əməkdaşı müraciət edən şəxsi qəbul edərkən ona hörmətlə yanaşmalı, bütün məsələlərin ədalətli həllinə inam və təminat yaratmaqla, vətəndaşda normal psixoloji ovqatın formalaşmasına cəhd göstərməlidir. Vətəndaşı narahat edəcək hər hansı gərginlikdən çəkinməlidir.

2. Polis əməkdaşı vətəndaşı diqqətlə dinləməyi bacarmalı və hətta müsahibinin dedikləri əhəmiyyətsiz və maraqsız olduqda belə, bunu üzə vurmamalı, laqeydlik və hövsələsizlik göstərməməlidir.

3. Polis əməkdaşı nəzərə almalıdır ki, vətəndaşlar polisə müraciət edərkən həyəcanlı və əsəbi ola bilər ki, bu da onlara baş vermiş hadisəni aydın və dəqiq şəkildə izah etməkdə maneçilik törədir. Ona görə də səbrli olmaq, vətəndaşın sakitləşməsi üçün şərait yaratmaq, onu sonadək, ilk mərhələdə isə kağız və qələmsiz dinləmək lazımdır.

4. Vətəndaş şəxsiyyətini bildirmədikdə, nəzakətli şəkildə özünü təqdim etməsini xahiş etmək lazımdır.

5. Vətəndaşın xahişinə və suallarına doğru cavab verilməlidir. Dəqiq cavab verməkdə çətinlik yaranarsa, vətəndaşla başqa günə görüş təyin edilməlidir.

6. Vətəndaş şikayəti üzrə qəbul olunmuş qərardan narazı qaldıqda, ona yuxarı instansiyalara şikayətetmə hüququnun olduğu bildirilməlidir.

7. Əgər vətəndaş hər hansı bir məlumatı çatdırmaq və ya yardım etməkçün gəlmişsə, ona təşəkkür edilməli, zəruri hallarda həmin şəxslərin təhlükəsizliyi və mənbənin konfidensiallığı təmin olunmalıdır.

8. Polis əməkdaşı bilməlidir ki, kənar şəxslərin vətəndaşların qəbulu yerlərində olması məqsəduyğun deyildir. Əgər qəbul hüquqşünasların, müəllimlərin, jurnalistlərin, ictimai və beynəlxalq qurumların nümayəndələrinin və ya rəhbər instansiya nümayəndələrinin, yaxud yoxlayıcıların iştirakı ilə keçirilirsə, vətəndaşlara bu barədə məlumat verilməlidir. Vətəndaş öz şikayətinin məzmunu təklikdə açıqlamaq istədikdə, ona müvafiq şərait yaradılmalıdır.

9. Əgər vətəndaşla onun evində görüşmək zərurəti yaranarsa, bu barədə o xəbərdar edilməli, görüşün vaxtı razılaşdırılmalıdır.

10. Polis əməkdaşı vətəndaşın evinə razılaşdırılmış vaxtda getməlidir. Bu zaman nəzakətli olmalı, salamlaşıb özünü təqdim etməli, içəri dəvət ediləndək gözləməlidir.

*Ardı 3-cü səhifədə.*

# Xilaskarları siz də tanıyın

Sərtləşdirilmiş karantin rejiminin yumşaldılmasını, çimərliklərin açılmasını səbirsizliklə hamı gözləyirdi. Operativ Qərargahın 5 avqustdan etibarən çimərliklərdən təsdiq edilmiş xüsusi qaydalara əsasən istifadə etmək icazəsi uşaqlar qədər böyükləri də sevindirdi. Kiçikdən-böyüyə hamı üz tutdu Abşeron çimərliklərinə.

Yeri gəlmişkən, çimərliklərdə Operativ Qərargah tərəfindən elan edilmiş tələb və tövsiyələrə əməl olunması məqsədilə daxili işlər orqanlarının əməkdaşları mütəmadi olaraq reydlər keçirir, istirahətə gələn vətəndaşlarla izahedici söhbətlər aparır, onlara sosial məsafənin saxlanılmasının vacibliyini bildirirlər. Yenə də təhlükəsizlik qaydalarını unudanlar oldu. Maarifləndirməklə yanaşı, polis xilaskarlıq missiyasını da yerinə yetirir.

Bu günlərdə "Əlahiddə Çevik Polis Alayının əməkdaşları Buzovna çimərliyində və Dənizkənarı Milli Parkda boğulmaq təhlükəsi ilə üz-üzə qalan iki uşağın və bir ananın həyatını xilas etdi" xəbərləri də saytların manşetinə çevrildi.




**Buzovna çimərliyində xidmət aparan polis serjantı Ayxan Hüseynli** 11 yaşlı N.Qurbanovanın boğulduğunu görüb. Dərhal həyatını təhlükəyə ataraq onu ölümün pəncəsindən qurtarıb.

Elə həmin gün daha bir azyaşlının və anasının həyatı xilas edilib. **Dənizkənarı Milli Parkda xidmət aparan polis serjantları Rəşad Məmmədov və Sevinc Quliyeva** bir qadının qışqıraraq kömək çağırmasını eşidiblər. Hadisə yerinə çatanda məlum olub ki, 11 yaşlı M.Abdullayev ehtiyatsızlıqdan suya düşüb. Onu xilas etməyə çalışan anası A.Abdullayeva özünü dənizə atıb və hər ikisi boğulmaq təhlükəsi ilə üzləşib. Bu zaman polis əməkdaşları onların imdadına yetişiblər...

Polis cinayətkarlıqla qətiyyətli mübarizə apardığı, vətəndaşa təhlükədən daha yaxın olduğu, həyatını həyat qurtarmaq üçün təhlükəyə atdığı üçün vətəndaşların güvənc yeri sayılır.

*Teymur Əlizadə,*
*polis kapitanı*





# Polislər də köməyə çatdılar

DİN Mətbuat Xidmətinin Quba rayonunda regional qrupundan verilən məlumatda bildirilir ki, avqust ayının 10-da səhər saatlarında Quba Rayon Polis Şöbəsinə rayonun Dəvədabanı yaşayış massivi ətrafında olan dağlıq ərazilərdə yanğın baş verməsi barədə məlumat daxil olub. Polis əməkdaşları dərhal hadisənin baş verdiyi əraziyə yollanıblar və yanğının qarşısının alınmasında Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə birlikdə fəal iştirak ediblər.

Əsasən fiziki qüvvə ilə yanğını tez bir zamanda ram etməyə müvəffəq olan RPŞ-nin və FHN-nin əməkdaşları hadisənin baş verdiyi ərazidə təxirəsalınmaz təhlükəsizlik tədbirləri həyata keçirərək, alovun miqyasının böyüməsinin qarşısını vaxtında alıblar.



Yanğının baş vermə səbəbləri araşdırılır.

*Nizam Həmidov,*
*polis baş leytenantı*

# Davranış qaydaları xidmətin təməlidir

*Əvvəli 2-ci səhifədə.*

11. Ev sahibindən icazəsiz telefondan istifadə edilməməlidir. Xidməti iş ilə əlaqədar zəng etmək üçün icazə istənilməlidir.

12. Əgər evdə olan şəxslərdən biri ilə təklikdə söhbət etmək zərurəti varsa digərlərini narahat etmədən otaqdan çıxmaq lazımdır. Söhbət ətrafında məxfilik şəraiti yaratmaq lüzumsuzdur. Belə hal evdəki digər şəxslər tərəfindən düzgün qiymətləndirilməyə bilər.

13. Qadınla təklikdə qalmaq məqsədəmüvafiq deyil. Qadınla söhbət zamanı onun həyat yoldaşı və ya böyük uşaqlarının iştirakı vacibdir.

14. Mənzildə axtarış aparılması kimi prossesual hərəkətləri həyata keçirərkən, polis əməkdaşından daha çox təmkin və nəzakət tələb olunur. Çünki axtarış prosesinin, müqəssirin və ya şübhəli şəxsin ailə üzvlərinə böyük emosional təsiri vardır.

15. Ev sakinlərinə hər hansı məsləhət verməkdən, irad tutmaqdan çəkinmək lazımdır. Ailədə olan həyat tərzi barədə fikir söyləmək olmaz.

16. Axtarış sakit, hay-küysüz və bağlı qapılar arxasında aparılmalıdır. Əməkdaşların öz aralarında profesional vasitələrlə -işarələr, jestlər və s. ilə ünsiyyət qurmaları məqsədə uyğun deyil.

17. Unutmaq olmaz ki, axtarış zamanı, uşaqların, xəstələrin yataqları da yoxlanılır. Bu hərəkətlər xüsusi ehtiyat, səliqə və nəzakətlə həyata keçirilməlidir.

18. Şkafda, şifonerdə, kitab rəflərində, mətbəxdə və s. yerlərdə axtarış aparərkən əşyalarla səliqəli davranmaq lazımdır. Onları hara gəldi atmaq, əzmək, tapdalamaq və s. hallar yol verilməzdir.

19. Zərurət olmadıqda, döşəməni və divarları zədələmək, xalçaları qoparmaq, divar kağızlarını cırmaq yolverilməzdir. Əks halda bu ciddi narazılığa, mübahisəli vəziyyətin yaranmasına səbəb ola bilər.

20. Axtarış başa çatdıqdan sonra vəzifəcə böyük polis əməkdaşı ev sahibləriylə təklikdə qalaraq baş verənlərə görə üzr istəyib, bunu xidməti borcun və qanunun tələbi kimi izah etməlidir.

# "Komissar Həsənov"... Onu belə çağırırdılar

**"Bu gün sıralarımızda cinayətkarlıqla qətiyyətlə mübarizə aparan, hər anı ölümlə üz-üzə olan, həyatı filmə çevriləcək yüzlərlə əməkdaşımız var. Zaman gələcək ki, biz də öz "Komissar Kattani"lərimizi ekranlaşdıracağıq."**

"Mübariz Keşikdə"nin ötən saylarının birində "Komissar Kattani" haqqında yazdığımız məqalədə yer alan bu fikirlər həmkarlarımızın diqqətini çəkmişdi. Zəng etmişdilər, fikirlərini bölüşmüşdülər. Hətta bəziləri bu gün Azərbaycan kinosuna yeni nəfəs gətirəcək filmlərin çəkilməsi üçün polisin arxivində, eləcə də cəmiyyətdə rezonanas doğuran və asayiş keşikçilərinin peşəkarlığı sayəsində üstü isti izlərlə açılan kifayət qədər materialların olduğunu dedilər. Düzü, bu reaksiyalar gözlənilən idi...

Redaksiyamıza gələn o zəngdən sonra bir daha əmin olduq ki, fəaliyyətimizi həm də qəzetimiz vasitəsilə izləyirlər. Göyün sirrini yerə daşıdığımız bir dövrdə yaşasaq da internet resurslarını izləməklə yanaşı, qəzet oxumaq zövqündən imtina etməyənlərin, gündəlik çıxan qəzetlərlə yanaşı, hətta səhavi qəzetləri oxuyub fikir bildirənlərin sayının çox olduğunu gördük.

"Həyatını, xidmətini ekranlaşdırmağa "Komissar Kattani" gəzirsiniz eləmi? Bu gün polisin sıralarında xidmət edən, təqaüddə olan onlarla belə əməkdaş var. Mən onlardan birini yaxşı tanıyıram. Elə siz də onun xidmətinə bələdsiniz"...

İntizarda qaldığımızı görüb özünü təqdim etdi: "Sizinlə danışan Metrologiya İnstitutunun mətbuat katibi Əliabbas Bağırovdur. Qəzetinizin hər sayını oxuyuram, saytınızı izləyirəm. Polisin həyatı, fəaliyyəti mənə həmişə maraqlı gəlib. Riskli peşədir. "Komissar Kattani" başlıqlı yazınız diqqətimi çox çəkdi. Mənim uzun illərdir ki, tanıdığım biri var. Onu gəncliyində "Komissar Kattani" deyə çağırardılar. Təqaüddə olan polis polkovniki Adil Həsənov".

Əslində, bu bir çağırış idi. Daxili işlər orqanlarında uzun illər xidmət edən, səmərəli, peşəkar fəaliyyəti ölkə və DİN rəhbərliyi tərəfindən yüksək qiymətləndirilən, insanların sevgisini, etimadını qazananların tanıdılmasında, barələrində bədii və sənədli filmlərin çəkilməsində ssenaristlərə, rejissorlara təklif verməkdə, yaxından kömək etməkdə ləngisək də, bundan sonra gecikmək olmaz. Çünki ömür an məsələsidir...

"Google" axtarış sistemində və "Youtube"un səhifələrində "Polis polkovniki Adil Həsənov" yazıb axtarış verdik. Onu çoxdan tanısaq da, illərin peşəkarı olduğunu bilsək də vaxtında yazılası çox şeylərin üstündən sükutla keçdiyimizə heyfsiləndik.

Orxan Fikrətoğlunun təqdimatında "İstintaq davam edir" verilişinə baxmaq kifayətdir ki, bu gün dünyanın ən məşhur xəfiyyələri ilə adı bir sırada çəkiləcək Azərbaycan Polisini daha yaxından tanıyaq. Onun rəhbərliyi ilə Masallıda "Xaş-xaş doping 95" şərti adı altında keçirilən əməliyyat tədbirinin sədası günümüzdə belə səngiməyib. Yazı ilə bağlı araşdırma apararkən cənub bölgəsində yaşayanların bu barədə indi də danışdıqları bizi heyrətləndirdi: "Polislər həmin gün elə bir fədakarlıq göstərdilər ki, ölkədə rezonans doğurdu. Masallı rayonunun meşə zolaqlarında silahlı mühafizəçilər tərəfindən qorunan və iki hektar sahəni əhatə edən plantasiyadan 46 tondan çox yaşıl kütlə halında çətənə bitkisi müsadirə edildi. Həmin əməliyyatda iştirak edən polis əməkdaşlarının hər anı ölüm idi".



Bu əməliyyat "Mir" kanalı vasitəsilə dünyaya yayımlandı. "Oqonyok" jurnalında geniş məqalə çap edildi.

Danışdığımız vaxtda görüşdük. İllərin "qar əli" çoxdan saçlarına sığal çəkmişdi. Yaşı altmışı ötsə də gümrah idi. Hiss olunurdu ki, ürəyi doludur. "Allah özü millətimizi bu bəladan qorusun",- deyib əllərini göyə qaldırdı. O, aram-aram danışdıqca üzündəki ifadədən illərin yorğunluğunun hələ də canından çıxmadığı aydınca hiss olunurdu. Cənub bölgəsində ezamiyyətdə olarkən görülən işlər barəsində məlumat verməyi gənclərə həvalə edərdi. Düzü, bu bizə qəribə gələrdi. Elə fürsətdən istifadə edib nə üçün belə etdiyini soruşanda gülümsədi: "Cinayətlərin açılmasına mən rəhbərlik etsəm də əsas işi şəxsi heyət görürdü. Məhz bu səbəbdən də cinayətin açılması ilə bağlı müəyyən mətləblərə aydınlıq gətirməyi əməkdaşlara həvalə edirdim ki, həvəslənsinlər, çəkdikləri zəhmətin hədər getmədiyini görsünlər".

Telefonları susmaq bilmirdi. Yenə də axtarırdılar, arayırdılar, məsləhət alırdılar. **İşinin peşəkarı olmaq, təqaüdə çıxdıqdan sonra belə gərəkliliyini hiss etmək insanın xoşbəxtliyidir. O, sanballı qoruyan, ağırtaxtalı kişilərdəndir. "Köhnəliyi" ilə adamı valeh edir polis veteranı Adil Həsənov.**

Maraqlı müsahibdir həm də. Əli işdən, gücdən soyumayıb. Azərbaycan Metrologiya İnstitutunda Qanunvericilik Departamentinin direktorudur. Dərin zəkası, geniş dünyagörüşü, mühakiməsi, hadisələrə münasibəti ilə də bu gün işlədiyi kollektivin rəğbətini qazanıb.

Xidmətdə olarkən polisin adını ucaldan, elin yaddaşında qalan, doğulduğu, işlədiyi rayonların insanlarının bu gün də dilindən düşməyən xeyirxahlığı ona başucalığı gətirib, dünyadan köçənlərinə rəhmət oxutdurub.

Masallıda xeyir-şər evinin, Bərdədə məscidin tikintisində, Gədəbəydə Haçaqaya ocağına aparan yolun təmirində səxavətini əsirgəməyib. Xalqın nəzərində uca olan, inanılmış, sınanmış ocaqların, övliyaların qəbirlərinin üstünü götürməklə Azərbaycan Polisinin dini dəyərlərə saygısını, hörmətini nümayiş etdirib.

Veteranlara göstərilən diqqət və qayğıdan çox razıdır. Deyir ki, Daxili İşlər Nazirliyinin rəhbərliyi onları unutmur, yaddan çıxarmır. Tədbirlərə dəvət alır, gənclərlə görüşürlər.

"Bu gün pandemiya ilə əlaqədar görüşlər təşkil edilmir. İnanıram ki, ölkəmiz bu bəladan da üzü ağ çıxacaq, qaydalara hamılıqla əməl etsək, həyat öz axarına düşəcək. Ölkə başçısı tərəfindən atılan hər bir addım xalqımızı qorumaq üçündür. Bu işdə biz veteranların da üzərinə böyük məsuliyyət düşür. Bəla ilə mübarizədə həmrəylik nümayiş etdirib, birlik göstərməliyik. Azərbaycan Polisi insanların sağlamlığı üçün qətiyyətlə üzərinə düşən işin öhdəsindən gəlməyə çalışır. Və ən ümdəsi, köməyə ehtiyacı olanlara dəstək olmaqla onlar polis-vətəndaş həmrəyliyini daha da qüvvətləndirirlər"...

Onun ömür yolu yazılacaq kitab, çəkiləcək filmdir.

Elə isə daha yaxından tanıyaq: Adil Həsənov 1958-ci ildə Cəlilabad rayonunun Göytəpə şəhərində doğulub. 1976-1978-ci illərdə Altay vilayətinin Barnaul şəhərində Daxili Qoşunlarda hərbi xidmətdə olub. Tərxis olunduqdan sonra Ulyanovsk şəhərində Post-Patrul Xidmətində polis nəfəri kimi xidmətə başlayıb. Moskvanın Ümumittifaq Hüquq İnstitutuna daxil olub və 1983-cü ildə bitirib. 1988-ci ilin noyabrında Xankəndinə DİN-in tərkibində əməliyyat qrupuna rəhbərlik edib. Torpaqlarımıza erməni təcavüzü başlayanda silaha sarılıb, Ağdamın Güllücə, Şuraabad kəndləri uğrunda gedən döyüşlərdə vuruşub, Cəbrayıl rayonunun 7 kəndinin ermənilərdən geri alınmasında və Daşaltı əməliyyatında iştirak edib.

Bərdənin, Yardımlının, Gədəbəyin, Astaranın rəisi olub. DİN Baş Cinayət Axtarışı və DİN Baş Mütəşəkkil Cinayətkarlıqla mübarizə idarələrində məsul vəzifələrdə xidmət edib. Məhz cinayətkarlıqla qətiyyətli mübarizəsi, xüsusilə ağır cinayətlərin açılması, baş verə biləcək cinayətlərin qarşısının alınmasında fərqləndiyinə görə A.Həsənov o vaxtın populyar serialının qəhrəmanı "Komissar Kattani" ilə müqayisə edilirdi.

Xidmətləri ölkə rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilib. O, 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "İgidliyə görə medal" ilə təltif edilib.

Bu gün övladları Sadiq və Məmi Həsənovlar yolunu davam etdirirlər.

*Hafiz Təmirov,*
*Ruslan Vəliyev*

# QƏHRƏMANLAR SIRASINDA

**Tahir Tofiq oğlu Həsənov 1970-ci ilin fevral ayının 22-də Bakı şəhərində dünyaya göz açıb. 1987-ci ildə Nəsimi rayonundakı 23 saylı orta məktəbi bitirdikdən sonra 1988-ci ildə Sovet Ordusu sıralarında hərbi xidmət keçib. Hərbi xidmətdən qayıtdıqdan sonra Bakı Dövlət Universitetinin Tarix fakültəsinə daxil olub.**

Erməni qəsbkarlarının torpaqlarımıza təcavüzünə, soydaşlarımızın öz dədə-baba yurdlarından qovulmasına dözmür. Ailənin yeganə övladı olmasına baxmayaraq o, təhsilini yarımçıq qoyub könüllü olaraq Vətənin müdafiəsinə qalxan igidlərin sırasına qoşulur.

Tahir daxili işlər orqanlarında xidmətə qəbul olunur.

Onun desant alayında xidmət etməsi, yüksək fiziki peşə hazırlığı nəzərə alınır və kəşfiyyat qrupuna komandir təyin edilir. Qəhrəman polisin döyüş yolu cəbhənin müxtəlif



istiqamətlərindən keçir. O, Ağdərə, Füzuli, Laçın uğrunda döyüşlərdə iştirak edib, Xocalının müdafiəsində sona qədər vuruşur. Azərbaycan ordusu Ağdərəni azad edəndə Tahir iki döyüşçü ilə Ağdərəyə birinci daxil olur. Yeganə övladını tək qoymayan Tofiq Həsənov da Tahirlə bərabər Qarabağ uğrunda döyüşlərdə iştirak edib.

1992-ci ilin sentyabr ayının 2-də Ağdərənin Çıldıran yüksəkliyinə növbəti hücum başlayır. İki istiqamətdən aparılan əməliyyatda düşmən daha yüksək mövqedə qərar tutduğundan hər tərəfi nəzarətdə saxlaya bilirdi. Kəndə girmək mümkün deyildi. Tahir on nəfər döyüşçü ilə başqa istiqamətdən hücuma keçsə də pusquya düşür. Ağır yaralanmasına baxmayaraq, təslim olmur və tank əleyhinə qumbarayla onu ölmüş bilib ətrafına toplaşan 41 ermənini özü ilə bərabər partladaraq məhv edir. Düşmənin onları əsir götürmək niyyəti baş tutmur.

O, Şəhidlər Xiyabanında dəfn edilib. Subay idi. Təhsil aldığı 23 saylı orta məktəb Qəhrəmanımızın adını daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 1992-ci il tarixli 273 saylı Fərmanı ilə Həsənov Tahir Tofiq oğlu (ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

***Ruhiyyə Əliyeva,***
***polis baş leytenantı***

# “COVİD-19”-u yayanlar məsuliyyətə cəlb olundular

Daxili işlər orqanlarının əməkdaşları tərəfindən ölkə ərazisində tətbiq olunmuş xüsusi karantin rejimi dövründə “Covid-19” virusunun yayılması hallarının qarşısının alınması istiqamətində bir sıra tədbirlər həyata keçirilmiş, vətəndaşlar tərəfindən epidemiya əleyhinə rejim, sanitariya-gigiyena qaydalarının pozulması hallarına yol verilməməsi ciddi nəzarətdə saxlanılmışdır.

TƏBİB-dən daxil olmuş məlumatlara dərhal reaksiya verilməklə zəruri tədbirlər görülmüş, “Covid-19” virusuna yoluxmuş və ev şəraitində müalicə olunan şəxslərin müəyyən edilmiş qaydalara riayət etmələri, öz hərəkətləri ilə digər şəxslərin yoluxmasına təhlükə yaratmamaları diqqət mərkəzində saxlanılmışdır.

***Fərdin məsuliyyətsizliyi cəmiyyət tərəfindən qınaqla qarşılanır. Polisin müdaxiləsi isə ədalətin bərpası ilə nəticələnir.***

Təkcə cari ilin iyul ayı ərzində paytaxtın Binəqədi, Səbail, Sabunçu, Xətai, həmçinin Sumqayıt, Mingəçevir, Cəlilabad, Yevlax, Göyçay şəhər və rayon polis orqanları tərəfindən görülmüş tədbirlər nəticəsində koronavirus infeksiyasına yoluxmuş və ev şəraitində müalicə olunan 10 nəfərin mənzillərini tərk edərək



küçəyə çıxmaları və digər şəxslərin sağlamlığını təhlükə qarşısında qoymaları müəyyən olunmuşdur.

Görülmüş tədbirlərlə həmin şəxslər dərhal təcrid edilmiş və xüsusi karantin rejimi qaydalarını pozmaqla virusun yayılmasına real təhlükə yaratdıqlarına görə barələrində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 139-1.1-ci maddəsi ilə cinayət işi başlanmışdır.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

***C.Natiq***

# Keçirilən tədbirlər nəticəsində



Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə reydlər keçiriblər.



Avqustun 6-da keçirilən reydlər zamanı Abşeron rayonunun Mehdiabad qəsəbəsində yerləşən “Şok Market”in yaxınlığında və Binəqədi rayonundakı Binəqədi gölü ərazisində məişət tullantılarının qalaqlanması və yandırılması faktları aşkar edilib.

İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsinin tələblərini pozduqlarına görə Mehdiabad Bələdiyyəsinin əməkdaşı, qəsəbə sakini Z. Yarışov və Bakı şəhər sakini K.Əhmədov barəsində protokollar tərtib edilib. Z.Yarışov 3 min, K.Əhmədov isə 600 manat məbləğində cərimələniblər.



Bu istiqamətdə tədbirlər davam etdirilir.

# DÜNYAYA PƏNCƏRƏ

Türkiyədə keçirilən toy, nişan və nikah məclislərində koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar yoxlama-nəzarət aparılacaq. Türkiyənin Daxili İşlər Nazirliyi ölkənin bütün valiliklərinə bununla bağlı təlimat göndərib.

Təlimatda bildirilir ki, yoxlama-nəzarət tədbirlərində məqsəd koronavirusla əlaqədar sosial həyat üçün müəyyən edilən məhdudiyyətlərə necə əməl olunmasını öyrənməkdir. Yoxlama-nəzarətlərin nəticələrinə uyğun olaraq məhdudiyyətlərlə bağlı təkliflər hazırlanacaq.

*****

Rusiya Prezidenti Vladimir Putin üç yaşına çatmamış uşağı olan analara, habelə hamilə qadınlara xırda cinayət etdikləri təqdirdə cəza tədbirlərini yüngülləşdirməklə bağlı qanun imzalayıb. Artıq məhkum hamilələr, həmçinin üç yaşına çatmamış uşağı olan qadınlar şərti azadlığa çıxa bilər və ya onların qalan cəza müddəti daha yüngül cəza növü ilə əvəz edilə bilər.

Eyni zamanda, Rusiya Federasiyasının Cinayət Məcəlləsinə edilən düzəlişlərə əsasən, məhkum kiçik bir cinayətə görə məhkəmənin təyin etdiyi cəza müddətinin ən azı dörddə birini çəkməlidir.

*****

Ümumdünya Səhiyyə Təşkilatı, yol-nəqliyyat hadisələrinin ən çox baş verdiyi ölkələrin siyahısını tərtib edib. Siyahı, 100 min əhaliyə düşən ölü sayı nəzərə alınaraq hazırlanıb.

Bu göstəricilər təkcə yolda qəzaya uğramağın real ehtimalını deyil, həm də gətirib çıxara biləcəyi fəsadların ciddiliyini əks etdirir. Say nə qədər yüksəkdirsə vəziyyət daha da pisləşir, yəni bir ölkə 25-ci yerdədirsə, 5-ci olan ölkədən daha təhlükəsizdir.

Bu göstərici üçün ən təhlükəli ölkələrin siyahısına Zimbabve (100 min nəfərə 45 nəfər) və Liberiya (35,9) daxildir.

Latın Amerikasında vəziyyət Paraqvayda (22,7) və Ekvadorda (21,3) daha təhlükəlidir. Braziliyada piyada vurulmalarının ölüm nisbəti 19,7-dir. Argentinada bu hal digər ölkələrdən bir az yaxşıdır - 100 min əhaliyə 14 ölüm.

Hindistanda yol təhlükəsizliyi baxımından elə də ürəkaçıcı deyil. Burda statistikalar yüz minə 22,6 ölüm hadisəsini göstərir və dünya təsnifatında 58-ci yeri tutur. ABŞ 100 min əhaliyə 12,4 hal göstəricisi ilə 112-ci yerdədir. Çin 68-ci yerdədir (18.2).

Avtomobil qəzalarının ən az baş verdiyi ölkələr İsveçrə, Almaniya, Yaponiya və San Marinodur.

*****

Rusiyada Federal Təhlükəsizlik Xidməti Moskvadan və Qafqazdan Sibirə kimi ölkəboyu gizli silah ticarəti ilə məşğul olan şəbəkəni ələ keçirib.

Moskva və Moskva əyalətində, Dağıstanda, Çeçenistanda, Qaraçay-Çərkəz Respublikasında, Krasnoyarsk diyarında, Amur, Voronej, Lipetsk, İrkutsk, Rostov və Kemerovo vilayətlərində olan gizli emalatxanalarda axtarışlar aparılıb, çoxlu silah-sursat tapılıb.

*****

Almaniyada sürücü ədəbsiz jestinə görə 1500 avro cərimələnib. “BMW X5” markalı avtomobilin 26 yaşlı sürücüsü 70-lik yolda 81-lə radara düşüb və o, yol kənarında quraşdırılmış avtomatik sürət kompleksinə ədəbsiz əl işarəsi göstərib.

Polisinin rəsmi “Facebook” səhifəsində dərc etdiyi məlumatda bildirilir ki, normal vəziyyətdə ona 20 avro cərimə tətbiq ediləcəkdi, ancaq sürücünün bu ədəbsizliyi yerli hökumətin xoşuna gəlməyib və məbləğ 75 dəfə artırılıb. Bundan əlavə, o, 1 aylıq sürücülük vəsiqəsindən də məhrum edilib.

***Natiq Cavadov,***
***polis mayoru***

# Avqust ayının 5-dən 11-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 193 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 47 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 100, o cümlədən borclu şəxs qismində axtarışda olan 47 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 11 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 11 nəfər ölmüş, 8 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 106 fakt müəyyən edilmişdir.

# MARAQ DÜNYASI

### TARİXİ DƏYİŞDİRƏN 5 YUXU

Tarix boyu yuxular elmi kəşflərin, ixtiraların ilham mənbəyi olmuşdur. Elm insanları arasında bunu etiraf etmək istəməyənlər olsa da, bu əslində batil bir inanc deyil, olduqca təbii bir prosesdir.

Çünki yuxular bizə bilmədiyimiz bir məlumatın göydən enməsini təmin etmir, əksinə bəlkə də uzun zamanlar beynimizdə dönüb duran bir düşüncənin yerini tapmamıza yardımçı olur.

### DAĞDAN İŞIQ SÜRƏTİLƏ SÜRÜŞƏN EYNŞTEYN

Albert Eynşteyn yuxusunda özünü bir dağdan aşağıya demək olar ki, işıq sürətilə sürüşdüyünü, sürüşərkən isə ətrafındakı ulduzların görünüşünün dəyişdiyini görür. Oyandıqdan sonra yuxunun üzərində xeyli baş sındıran Eynşteyn relyativistik mexanika nəzəriyyəsini inkişaf etdirdiyini etiraf etməkdən çəkinmir.

### İLK FANTASTİK ROMAN

1816-cı ildə Mari Shelley "Frankenstein" romanının əsas fikrini yuxuda görüb. Cenevrə gölü sahilinə səfər edən Lord Bayron hər kəsin bir kabus hekayə yazmasını təklif edir. Shelley isə ta ki, «bir cəsədə yenidən həyat verilməsi» fikri ağlına gələnə qədər heç bir şey düşünmür. O, yuxuda romanda yer verəcəyi, Frankensteinin canlanması anını görür və beləcə ilk elmi fantastik romanı ərsəyə gəlir.

### POL MCCARTNEYNİN YUXUSU

"The Beatles" qrupunun dünya şöhrətli və köhnəlməyən mahnısı "Yesterday"in bəstəsi əvvəldən axıra Paul Mccartneynin yuxusundan bəhs edir. Mccartney səhər yuxudan oyanıb dərhal pianonun qarşısına keçib ailəsinə və dostlarına yuxuda bəstələdiyi mahnını eşidib-eşitmədiklərini soruşur. Bir neçə həftə araşdırma apardıqdan sonra Mccartney mahnının özünün olduğuna əmin olur və Con Lennon ilə birlikdə sözlərini yazırlar.

### FIRLANAN ELEKTRONLAR

Kvant mexanikasının atası sayılan Niels Bohr atomun quruluşu üzərində baş sındırdığı bir gecə yuxusunda atom nüvəsi və ətrafında dönən elektronları görür. O ana qədər atomun quruluşu ilə bağlı proqnozları tutmayan Bohr, planetlərin ətrafında fırlandığı Günəş misalı atom nüvəsini görəndə, artıq nəyin arxasınca getməyin lazım olduğunu bilir. Beləliklə, həqiqət olduğunu hiss etdiyi bu fərziyyə reallığa çevrilir və o, kəşfinə görə fizika üzrə Nobel mükafatına layiq görülür.

### OTTO LOEVİ VƏ YUXUSUZ SİNİR HÜCEYRƏLƏRİ

Alman əsilli farmakoloq Otto Loevi isə sinir hüceyrələrində siqnal çatdırılmasının elektrik deyil, kimyəvi olduğunu yuxusunda görmüşdür. Yuxusunun arasında bu kəşfi bir kənara qeyd edib təkrar yuxuya gedən Loevinin səhər durub öz yazdıqlarını oxuya bilmədikdə hiss etdiyi panikanı təxmin etmək çətin deyil. Yuxunu xatırlamağa çalışdığı ertəsi günün onun həyatının ən uzun günü olduğunu deyən Loevi buna nail ola bilmir. Amma gecə yenə də eyni yuxunu görür. Bu dəfə işi şansa buraxmayan elm adamı onu Nobelə çatdıracaq yuxunu qeyd etməyə müvəffəq olur.

***Ruhiyyə Əliyeva***

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR:
HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9350
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik